**Təsviri incəsənət (Azərbaycan bölməsi)**

1. **Rəssam müasir dekorativ-tətbiqi incəsənətin bu növündə işləyərkən əridilmiş mumu parçadakı rəsmin üzərinə hopdurur, sonra bütün təyin olunmuş rəngləri açıqdan tündə prinsipinə əsasən parça üzərinə çəkir. Dekorativ-tətbiqi incəsənətin növünü müəyyən edin.**
   A) Qobelen
   B) Batika
   C) Bədii tikmə
   D) Mozaika
   E) Dekorativ boyakarlıq

2. **Van Qoq üslubunda bir əsər çəksəydiniz hansı rənglərdən və texnikadan istifadə edərdiniz?**
   A) Dekupaj texnikası, yaşıl rəng tonları
   B) Sulu boya texnikası, sarı rəng tonları
   C) İmpasto texnikası, sarı rəng tonları
   D) Kollaj texnikası, çəhrayı rəng tonları
   E) Mozaika texnikası, qəhvəyi rəng tonları

3. **Fovizm üslubuna aid *olmayan* xüsusiyyəti müəyyən edin.**
   A) Təsvirlərin ümumiləşdirilməsi
   B) Təmiz rənglər
   C) Kontrast rənglər
   D) Sadələşdirilmiş formalar
   E) İşıq-kölgə

4. **Anri Matisin bu əsərində od, torpaq və havanın rəmzi sayılan elementlər təsvir olunub. Əsəri müəyyən edin.**
   A) “Şlyapalı qadın”
   B) “Qırmızı çalarlarda harmoniya”
   C) “Rəqs”
   D) “Kral qazı”
   E) “Polineziya, dəniz”

5. **Pol Qogen yaradıcılığına aid *deyil:***
   A) Tablolar səthi, ornamentaldır
   B) Forma və xətlər ümumiləşdirilmişdir
   C) İşıqlı rənglər, yumşaq rəng keçidləri xarakterikdir
   D) Məhəbbət, ölüm və iztirab kimi mövzular üstünlük təşkil edir
   E) Kompozisiyalar yastı və monumentaldır

6. **Vasili Kandinskinin yaradıcılığına aid olan xüsusiyyətləri seçin.**
   1) Rəssamlıq barədə bir neçə kitabın müəllifi və tədqiqatçı-etnoqrafdır
   2) Əsərlərində rəngin təravəti, keçidlərin yumşaqlığı hiss olunur və daha işıqlı rəng qamması xarakterikdir
   3) Abstrakt sənətin banisi və nəzəriyyəçilərindən biridir

4) Əsərləri ikili obrazlardan, istehzalı səhnələrdən, optik illüziyadan ibarətdir
5) Mühəndislik təhsili almışdır, əsərləri elmi və riyazi görünüşə malikdir

A) 1,4 B) 2,4 C) 1,3 D) 2,3 E) 3,5

**7. Şagird xalq tikmələrinə aid nümunə təsvir edərkən tünd qırmızı fon üzərində qızılı rəngdə dalğavari, çarpaz, sınıq xətlərdən ibarət kompozisiya yaratdı. Bu xüsusiyyətlər hansı tikmə növünə aiddir?**

A) Piləktikmə
B) Güləbətin
C) Təkəlduz
D) Muncuqtikmə
E) Lentlə tikmə

**8. Uyğunluğu müəyyən edin.**

1) Kilim
2) Palaz
3) Cecim
4) Şəddə

a) Sadə və qaba olur, rəngli üfüqi zolaqlardan ibarətdir
b) Üfüqi sırada dəvə karvanı, atlılardan ibarət kompozisiyaya malikdir
c) Ensiz, uzun və şaquli rəngarəng zolaqlar üzərində sadə həndəsi naxışlardan ibarətdir
d) Yüngül, ikiüzlü olur, üçbucaq romb və trapesiyadan ibarət naxışlardan ibarət olur

A) 1-d, 2-c, 3-b, 4-a
B) 1-d, 2-a, 3-c, 4-b
C) 1-c, 2-b, 3-a, 4-d
D) 1-a, 2-c, 3-d, 4-b
E) 1-b, 2-a, 3-c, 4-d

**9. Şagird təbii varlıqlardan ibarət qeyri-heraldik fiqur təsvir etmək istəyirdi. O, hansı təsvirləri yerinə yetirməlidir?**

A) Əjdaha, qrifon, insan
B) Gəmi, tikili, silah
C) İnsan, heyvan, bitki
D) Məişət əşyası, əjdaha, silah
E) Qrifon, heyvan, bitki

**10. Şagird rənglərin emosional təsiri haqqında təqdimat edərkən mavi rəngin əks etdirdiyi təəssüratları qeyd etdi. Onlar nədən ibarətdir?**

A) Əmin-amanlıq, sakitlik, harmoniya
B) Cəsarətli, sərin, geniş, dərin
C) Həssas, mənəviyyat, hərəkət
D) Parlaq, şən, isti
E) Uğurlu, şəfalı, təbii

**11. Yaradıcı rəsm nədir?**

A) Qazanılmış bilik və bacarıqlar əsasında rəssam tərəfindən çəkilmiş rəsmdir
B) Naturanın xarakterik xüsusiyyətlərini tez bir zamanda ifadə edən rəsmdir
C) Elmi-tədqiqat xarakterli rəsmdir
D) Bədii əsərin ideyasını müəyyən edən ilkin rəsmdir
E) Mexanizmlər, əşya və cihazların detal və hissələri haqqında əyani təsvir yaradan rəsmdir

**12. Komikslər özündə hansı incəsənət növlərinin xüsusiyyətlərini birləşdirir?**

A) Musiqi və təsviri sənət
B) Fotoqrafiya və animasiya
C) Ədəbiyyat və təsviri sənət
D) Animasiya və teatr
E) Ədəbiyyat və teatr

**13. Uyğunluğu müəyyən edin.**

1) Albrext Dürer
2) Pablo Pikasso
3) Leonardo da Vinçi
4) Arif Hüseynov

a. 
b. 
c. 
d. 

A) 1-b, 2-d, 3-a, 4-d
B) 1-c, 2-a, 3-d, 4-b
C) 1-a, 2-c, 3-b, 4-d
D) 1-d, 2-b, 3-c, 4-a
E) 1-a, 2-c, 3-d, 4-b

**14. Verilmiş naxış elementinin hansı xovsuz xalça növünə aid olduğunu müəyyən edin.**



A) Vərni
B) Sumax
C) Şəddə
D) Zili
E) Kilim

**15. Bu ölkə nəbati ornamentin Vətəni sayılır:**
A) Qədim Misir
B) Qədim Yunanıstan
C) Qədim Roma
D) Qədim Mesopotamiya
E) Qədim Çin

**16. Əsərin müəllifini müəyyən edin.**
A) Ömər Eldarov
B) Fuad Əbdürrəhmanov
C) Mirəli Mirqasımov
D) Fazil Nəcəfov
E) Tokay Məmmədov



**17. Bu rəssam bir çox əsərlərini Şərq əfsanə və nağıllarının motivləri əsasında yaratmışdır və eyni zamanda dekorativ səhnə tərtibatının müəllifi olmuşdur:**
A) Tahir Salahov
B) Sakit Məmmədov
C) Toğrul Nərimanbəyov
D) Vəcihə Səmədova
E) Maral Rəhmanzadə

**18. Eduard Manenin natürmortları özündən əvvəlki rəssamların yaratdıqları natürmortlardan hansı xüsusiyyətləri ilə fərqlənirdi?**
A) Natürmortlarda mürəkkəblik xarakterik idi
B) Natürmortlarda əşyaların sayı az idi
C) Natürmortlarda hədsiz yüklənmələr var idi
D) Natürmortlarda əşyalar şərti xarakter daşıyırdı
E) Natürmortlarda əşyalar pərakəndə formada təsvir edilmişdi

**19. Uyğunluğu müəyyən edin.**
1. Roman üslubu
2. Bizans üslubu
3. Rokoko üslubu
4. İntibah üslubu

a. Simmetriya, nisbət, həndəsə
b. İncəlik, zəriflik

c. Tağşəkilli formada qapı və pəncərələr
d. Silindrik forma üzərində günbəz

A) 1-c, 2-d, 3-b, 4-a
B) 1-d, 2-a, 3-d, 4-b
C) 1-c, 2-b, 3-d, 4-a
D) 1-a, 2-d, 3-c, 4-b
E) 1-b, 2-a, 3-b, 4-c

**20. Şagird keramikanın xüsusiyyətlərini araşdırarkən keramikanın bu növündə dekorativ pannolar, kaşı plitələr, monumental heykəllər, həmçinin qab-qacaqlar hazırlandığını müəyyən etdi. Bu hansı növdür?**
A) Terrakota
B) Çini
C) Mayolika
D) Saxsı
E) Farfor

**21. Qədim Şumer sənətkarlığına dair saxsı qabları təsvir edərkən onun hansı təsvirlərlə bəzədilməsi bu qabları xarakterizə edə bilər?**
A) Döyüş və əfsanəvi səhnələrin təsviri
B) Həndəsi ornamentlər və stilizə edilmiş heyvan fiqurları
C) Ziyafət səhnələri və nəbati ornamentlər
D) Həndəsi ornamentlər və qadın təsvirləri
E) Stilizə edilmiş heyvan fiqurları və əfsanəvi obrazlar

**22. Azərbaycan miniatür sənəti tarixində realist üslubu ilə seçilən portret ustası:**
A) Soltan Məhəmməd
B) Sadiq bəy Əfşar
C) Mir Möhsün Nəvvab
D) Müzəffər Əli
E) Mirzə Qədim İrəvani

**23. Zərgər ilk olaraq hamar gümüş səth üzərində cızma ilə naxış çəkir, daha sonra isə səthi qara məhlulla örtür. Zərgər hansı texnikadan istifadə etmişdir?**
A) Qarasavad
B) Şəbəkə
C) Basma
D) Zərbetmə
E) İnkrustasiya

**24. Şagird muzeydə qədim Yunan vazası üzərində insan fiqurları, atlı səhnələr və müxtəlif ornamentlər təsvir olunduğunu müşahidə edir. Şagird bu qabın hansı qab rəngkarlığı texnikasına aid olduğunu müəyyən edir?**



A) Həndəsi naxışlı qab rəngkarlığı
B) Qarafiqurlu qab rəngkarlığı
C) Qırmızıfiqurlu qab rəngkarlığı
D) Qara və qırmızıfiqurlu qab rəngkarlığı
E) Ornamental qab rəngkarlığı

**25. Nümunəyə baxaraq metalın bədii emal üsulunu müəyyən edin.**



A) Tökmə, həkketmə
B) Tökmə, zərbetmə
C) Həkketmə və cızma
D) Tökmə və cızma
E) Həkketmə və zərbetmə

**26. Pol Sezannın yaradıcılığının bu dövründə mənzərə və çiçəkli natürmortlar üstünlük təşkil edirdi:**
A) İmpressionist dövr
B) Romantik dövr
C) Konstruktiv dövr
D) Sintetik dövr
E) Spontan dövr

**27. Şagirdlər natürmortun ilkin rəng həllini tamamladıqdan sonra növbəti mərhələyə keçməzdən əvvəl hansı amili nəzərə almalıdırlar?**
A) Daha parlaq rənglərin əlavə edilməsi
B) Kompozisiyanın dəyişdirilməsi və kontrast rənglərin vurulması
C) Ümumi ton və işıq-kölgə münasibətlərinin yoxlanılması
D) Yeni detalların əlavə olunması
E) Kontur xətlərin göstərilməsi

**28. Heykəltəraş Fuad Əbdürrəhmanovun xalq qəhrəmanları Koroğlu, Babək və Cavanşirə həsr etdiyi əsərləri heykəltəraşlığın hansı növünə aiddir?**
A) Büst
B) Heykəl
C) Statuyetka
D) Barelyef
E) Qorelyef

**29. Müəllim Usta Qəmbər Qarabağinin Azərbaycanın memarlıq və rəssamlıq ənənələrini zənginləşdirən bir sənətkar olduğunu bildirir və bununla bağlı layihə hazırlamağı tapşırır. Şagird təqdim etdiyi layihədə rəssamın bu sahədə hansı fəaliyyətlərini qeyd etmişdir?**

1. Qarabaği Şəki xan sarayının divar naxışlarını bərpa edib
2. Azərbaycanda dəzgah rəssamlığının əsasını qoyub
3. Dekorativ və rəngkarlıq üslublarını məharətlə birləşdirmişdir
4. Şuşadakı Gövhərağa məscidinin bəzədilməsində iştirak edib
5. Şuşa şəhərinin bir çox yaşayış evlərini bəzəyib

A) 1,2,5
B) 1,3,5
C) 1,3,4
D) 3,4,5
E) 2,3,4

**30. Ogüst Rodenin realist üslubda bürüncdən yaratdığı heykəl qrupu necə adlanır?**

A) "Mütəfəkkir"
B) "Viktor Hüqo"
C) "Kale vətəndaşları"
D) "Anri Roşfer"
E) "Qızılgüllü şlyapalı qız"

**31. Ejen Delakruanın üslub və texnikasını müəyyən edin.**

A) Romantizm-rəngkarlıq, qrafika
B) Klassisizm-rəngkarlıq, qrafika
C) İmpressionizm-rəngkarlıq
D) Romantizm-qrafika
E) Postimpressionizm-rəngkarlıq, qrafika

**32. Azərbaycan təsviri sənətinə improvizasiya və sərbəstlik gətirən, nonkonformist və novator olan rəssam:**

A) Fərhad Xəlilov
B) Fazil Nəcəfov
C) Mircavad Mircavadov
D) Sakit Məmmədov
E) Böyükağa Mirzəzadə

**33. Şagird dünya muzeyləri haqqında təqdimat edərkən İtaliyanın Florensiya şəhərində İntibah dövrünün rəmzi sayılan müzey haqqında maraqlı məlumatlar verdi. Bu hansı muzeydir?**

A) Albert və Viktoriya muzeyi
B) Uffiçi qalereyası
C) Luvr muzeyi
D) D`Orse muzeyi
E) Ermitaj muzeyi

**34. Postimpressionizmin ən böyük nümayəndələrindən olan məşhur fransız rəssamı Pol Qogenin Qədim Şərq ölkələri, Qədim Yunanıstan və ibtidai mədəniyyətə maraq göstərməsinə səbəb nə idi?**

A) Cəmiyyətdə onun yaradıcılığına marağın çox olması və yeniliklər axtarışında olması
B) Realizmin prinsiplərinin onu daha qane etməməsi

C) Müasiri olduğu cəmiyyətin onu qəbul etməməsi
D) İnsanlar tərəfindən onun əsərlərinin daha anlaşılan olması
E) Məşhur olmaq və daha çox gəlir əldə etmək istəməsi

**35. Şagird mənzərə təsvir edərkən uzaqdakı dağları tünd, digər detalları isə daha aydın və parlaq rənglə təsvir edir. Müəllim şagirdə bu təsvirdə hansı qaydanı pozduğunu bildirməlidir?**
A) Xətti perspektiv
B) Hava perspektivi
C) Rəng həlli
D) Kompozisiya
E) Faktura

**36. Şagird natürmort qurarkən stol üzərinə meyvələr, şüşə qab və parça yerləşdirir. Lakin bütün əşyaların bir xətt üzrə düzülməsi, aralarındakı məsafənin az olması və işıq mənbəyinin nəzərə alınmaması səbəbilə kölgələr qeyri-müəyyəndir. Bunun nəticəsində də təsvir səthi və cansız görünür. Müəllim natürmortun düzgün qurulması üçün hansı tövsiyəni verməlidir?**
A) Əşyaları daha sıx yerləşdirmək və boşluqları azaltmaq
B) Əşyaları müxtəlif planlarda yerləşdirib işıq mənbəyini müəyyənləşdirmək
C) Bütün əşyaları müxtəlif ölçüdə seçmək və eyni xətt üzrə saxlamaq
D) Konturla işləmək və ancaq düşən kölgələri qeyd etmək
E) Bütün əşyaları mərkəzdə toplamaq və yarımkölgələri göstərmək

**37. Bu üsluba aid geyimlərdə ciddi görkəm, dəbdəbə, rəsmilik və qeyri-adilik səciyyəvidir. Üslubu müəyyən edin.**
A) Rokoko
B) Roman
C) Barokko
D) İntibah
E) Bizans

**38. Qızılı və ya gümüşü sapla toxunmuş naxışlı ipək parça növünü müəyyən edin.**
A) Qanovuz
B) Məxmər
C) Mahud
D) Zərbaf
E) Atlas

**39. Memarlıq üslublarını müəyyən edin.**

1.  2.  3. 

4.  5. 

a. Antik    b. Qotik    c. Roman    d. Renessans    e. Rokoko

A) 1-c, 2-a, 3-d, 4-b, 5-e
B) 1-c, 2-e, 3-d, 4-a, 5-b
C) 1-c, 2-b, 3-d, 4-e, 5-a
D) 1-a, 2-e, 3-d, 4-b, 5-c
E) 1-a, 2-e, 3-c, 4-b, 5-d

**40. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.**




1. İmpasto texnikası
2. Təəssüratçı rəssam
3. Postimpressionizm üslubu
4. Rəngkarlıq
5. İmpressionizm üslubu

A) I-1,2, II-3, III-4,5
B) I-1,3, II-4, III-2,5
C) I-4,5, II-3, II-1,2
D) I-1,3, II-5, III-2,4
E) I-1,4, II-2, III-3,5

**41. Şagird mövzu üzrə rəsmi yerinə yetirərkən Xəzər dənizi və Qız qalası təsvirini eyni səviyyədə yerləşdirir və nəticədə dərinlik təəssüratı yaranmır. Təsvir zamanı şagird hansı qaydanı pozmuşdur?**

A) Rəng kontrastı
B) Ritm
C) Simmetriya
D) Perspektiv
E) Dinamika

**42. Uyğunluğu müəyyən edin.**

1. Məişət
2. Mənzərə
3. Natürmort
4. Portret
5. Tarixi

a. 
b. 
c 

d. 
e. 

A) 1-d, 2-b, 3-c, 4-e, 5-a
B) 1-e, 2-c, 3-b, 4-a, 5-d
C) 1-a, 2-b, 3-c, 4-d, 5-a
D) 1-b, 2-d, 3-c, 4-a, 5-e
E) 1-d, 2-b, 3-e, 4-c, 5-a

**43. Görkəmli memar, bir mühəndis kimi körpü və yeraltı anbarların, memar kimi məscid, saray, karvansara və hamamların tikintisinə rəhbərlik etmişdir. Memarı müəyyən edin.**

A) Memar Əcəmi Naxçıvani
B) Mikayıl Üseynov
C) Memar Sinan
D) Sadıq Dadaşov
E) Mikayıl Abdullayev

**44. Rəssam əsəri çəkmədən öncə nə etməlidir?**

A) Cızmaqara etməli
B) Eskiz çəkməli
C) Tədris rəsmi çəkməli
D) Müşahidə etməli
E) Rəng həllini müəyyən etməli

**45. Rəsmdə xətlərin ifadə imkanlarını müəyyən edin.**

1. Rəssamın fikirlərini ifadə edir
2. Xətlər vasitəsilə nəyi və necə təsvir etmək çox vacibdir
3. Rəsmdə xətlər məzmunu ifadə etmir
4. Xəttin hansı alət və materialla çəkilməsi daha vacib məqamdır
5. Qrafikanın "dili" sayılır

A) 1, 2, 5
B) 1, 3, 4
C) 2, 4, 5
D) 1, 3, 4
E) 2, 3, 5

**46. İncəsənətin yeni istiqaməti olan bu sənət növünün adı "işığın köməyi ilə rəsm" mənasını ifadə edir. O, əvvəlcə rəsmə kömək etmək üçün icad edilmişdir:**

A) Animasiya
B) Kinematoqrafiya
C) Səhnəqrafiya
D) Pantomim
E) Fotoqrafiya

**47. Animasiyanın hansı növündə müxtəlif materiallardan ibarət obyektlərdən istifadə edilir?**

A) Qrafik animasiya
B) Həcmli animasiya
C) Kompüter animasiyası
D) Fləş animasiyalar
E) Klassik animasiyalar

**48. Müəllim memarlıqda "Qənaət, fayda və gözəllik" devizinin hansı üsluba aid olması ilə bağlı şagirdlərin fikirlərini öyrənmək istədi. Şagirdlər müxtəlif fikirlər irəli sürdülər. Doğru olan hansıdır?**

A) Kinetizm
B) Konstruktivizm
C) Sürrealizm
D) Bizans
E) İntibah

**49. Şagird xalçaçı rəssamlar haqqında təqdimat edərkən kainatın yaradılışı, insanın göy cisimləri və kosmosu öyrənməsinə həsr etdiyi “Kəhkəşan” xalçasını yaradan rəssam haqqında məlumat verdi. Rəssamı müəyyən edin.**

A) Eldar Mikayılzadə
B) Kamil Əliyev
C) Lətif Kərimov
D) Cəfər Müciri
E) Arif Hüseynov

**50. Alberto Cakomettinin heykəltəraşlıqda etdiyi yenilik nədən ibarət idi?**

A) Heykəllərə həndəsi, şəffaf və yüngül formalar verirdi
B) Heykəllərinin həcmini sadə, fiqurları isə incə formada hazırlayırdı
C) Heykəlləri rəngli keramikalardan hazırlayırdı
D) Heykəlləri təbii formalarda və həcmli olurdu
E) Heykəllərində qabarıqlıq və natamamlıq xarakterik idi

**51.** “*Şagirdlərə tapşırılır ki, dinlənilən musiqi əsərinə uyğun rəsm kompozisiyası hazırlasınlar və hər iki iş arasındakı emosional əlaqəni izah etsinlər”.* **Bu fəaliyyət inteqrasiyanın hansı növünə aiddir?**

A) fənlərarası, fənnüstü
B) fəndaxili, fənlərarası
C) yalnız fəndaxili
D) yalnız fənlərarası
E) yalnız fənnüstü

**52.** *"Şagirdlərə iki fərqli rəsm əsəri təqdim olunur: birində isti rənglər, digərində isə soyuq rənglər üstünlük təşkil edir. Şagirdlər hər iki əsərə baxaraq rənglərin yaratdığı ovqatı müəyyən edir və izah edirlər: hansı əsər daha sakit, hansı daha enerjili və ya gərgin təsir bağışlayır?"* **Tapşırıq Blumun “İdrak taksonomiyası”nın hansı mərhələsinə uyğundur?**

A) təhlil etmək
B) tətbiq etmək
C) anlamaq
D) dəyərləndirmək
E) yaratmaq

**53.** “Şagirdlər mənzil interyeri üçün öz yanaşmalarını əks etdirən rəng palitrası seçirlər, seçdikləri palitranı dizayn konsepsiyası və estetik uyğunluq baxımından əsaslandırırlar”. Tapşırıq Blumun “İdrak taksonomiyası”nın hansı mərhələsinə uyğundur?

A) təhlil etmək
B) anlamaq
C) dəyərləndirmək
D) yaratmaq
E) tətbiq etmək

**54.** *"Müəllim summativ qiymətləndirmə üçün əvvəlki illərdə istifadə olunmuş test nümunəsini götürür. Lakin həmin test hazırkı tədris proqramında nəzərdə tutulan təlim nəticələri ilə uyğun gəlmir".* **Bu situasiyada qiymətləndirmənin hansı prinsipi pozulmuşdur?**

A) Obyektivlik pozulub: Qiymətləndirmənin müəllimin subyektiv rəyindən asılı ola biləcəyi düşünülür.
B) Humanistlik pozulub: Şagirdlərin psixoloji və emosional vəziyyəti nəzərə alınmayıb.
C) Şəffaflıq pozulub: Şagirdlərə qiymətləndirmə mövzuları əvvəlcədən bildirilməyib.
D) Validlik pozulub: Test ölçülməsi nəzərdə tutulan təlim nəticələrini yoxlamır.
E) Etibarlılıq pozulub: Test fərqli vaxtlarda sabit və ardıcıl nəticə verməyə bilər.

**55. Verilənlərdən biri effektiv müəllim-valideyn münasibətlərinə aid deyil:**

A) Müəllim istifadə olunan tədris materiallarının məzmununu anlamağa kömək etmək üçün valideynləri metodik resursla təmin edir.
B) Müəllim məktəbdə və sinifdə valideynlərin iştirakını təşviq edən pozitiv atmosfer yaradır.
C) Müəllim valideynləri müntəzəm olaraq sinif fəaliyyətləri, tapşırıqlar və gözləntilər barədə məlumatlandırır.
D) Müəllim valideynə bildirir ki, onun övladının təlim-tərbiyəsi ilə bağlı narahatlığını həll etməyə hazırdır.
E) Müəllim valideynləri övladlarının təhsili ilə bağlı fikirlərini və narahatlıqlarını bölüşməyə təşviq edir.

**56. Valideynlə-məktəb münasibətlərini inkişaf etdirmək üçün hansı yanaşma yanlışdır?**

A) Valideynlərə maarifləndirici resurslar və dəstək təqdim etmək
B) Müntəzəm rəy və informasiya paylaşmaq
C) Valideynləri məktəb mühitində iştirakını təşviq etmək və onların məktəb prosesində fəal rol oynamaqlarını təmin etmək
D) Münasibətləri yalnız akademik nəticələrə əsaslanaraq dəyərləndirmək
E) Müntəzəm olaraq valideyn görüşləri və tədbirlər təşkil etmək

**57.** *"Müşahidə olunur ki, yuxarı sinif şagirdlərindən biri öz sinif yoldaşını bullinqə məruz qoyur. Belə ki, tez-tez onun əşyalarını gizlədir, yoldaşları arasında xətrinə dəyən sözlər deyir".* **Problemin həlli üçün sinif rəhbərinin atacağı hansı addım effektiv olacaq?**

A) Həmin sinifdə dərs deyən müəllim, valideyn və şagirdlərlə görüşmək və bu prosesin nə üçün baş verdiyi ilə maraqlanmaq
B) Sinifdə dərs deyən müəllimləri və məktəb psixoloqunu məsələnin həllinə cəlb etmək və sinifdə mənəvi dəyərlərin inkişafı üçün addımlar atmaq
C) Məktəbin valideynləri, müəllimləri və psixoloqu ilə görüşmək, ümumilikdə məktəbin psixoloji-emosional mühitini yaxşılaşdırmaq baxımından addımlar atmaq.
D) Bullinqə məruz qalan şagirdlə görüşüb onu güclü olmağı tapşırmaq.
E) Bullinq edən şagirdi çağırıb danlamaq.

**58.** *"Dərs zamanı bir neçə şagird tez-tez zarafat edir, bir-biri ilə danışır və sinfin diqqətini yayındırır. Müəllimin xəbərdarlığından sonra qısa müddət sakitləşsələr də, davranışı yenidən təkrarlayırlar. Digər şagirdlərin bir qismi bu davranışlara qoşulur, bir qismi isə dərsə fokuslana bilmir".* **Bu vəziyyətdə müəllimin ən məqsədəuyğun davranışı hansıdır?**

A) Şagirdləri sinif qarşısında ciddi şəkildə danlamaq və bununla digər şagirdlərə də xəbərdarlıq etmək
B) Davranışı yeniyetməlik dövrünün təbii xüsusiyyəti kimi qəbul edib, yalnız vəziyyət daha da ağırlaşarsa, müdaxilə etmək

C) Sinif qaydalarını xatırlatmaq, şagirdin şəxsiyyətinə yox, konkret hərəkətinə yönələrək əks-əlaqə vermək
D) Əsas diqqəti həmin şagirdlərə yönəldib dərsi daha əyləncəli aparmaq, intizam problemini motivasiya çatışmazlığı kimi həll etməyə çalışmaq
E) Həmin şagirdləri dərhal sinifdən çıxarmaq və məsələni məktəb rəhbərliyinə bildirmək

**59.** *"Bir şagird qrup işində lider rolunu oynayır, lakin digər qrup üzvləri ilə münasibətləri pisdir və bu, qrup işinin gedişinə mənfi təsir göstərir".* **Müəllim problemi necə həll etsə, daha effektiv olar?**
1. Şagirdin liderlik rolunu dəyişdirmək və sonra onu digər qrup üzvləri ilə müzakirəyə cəlb etmək
2. Qrup üzvlərinə mübahisələri həll etməyin yollarını birbaşa göstərmək
3. Şagirdə liderliklə bağlı yönəldici suallar verməklə problemin həllinə nail olmaq
4. Qrup liderinin fəaliyyətini müşahidə edərək diqqətdə saxlamaq və əlavə dəstəyi təmin etmək

A) 2, 3
B) 3, 4
C) 1, 3
D) 1, 2
E) 2, 4

**60. Cədvələ əsasən uyğunluğu müəyyənləşdirin.**

| Doğru | Yanlış |
|---|---|
| **1.** Şagirdi fasilitasiya etmək ona kömək etmədən tapşırıqların icrasını təmin etmək deməkdir. | **3.** Şagirdin maraq və istəklərini summativ qiymətləndirmədə nəzərə almaq effektiv müəllim-şagird münasibətlərinin qurulmasına şərait yaradır. |
| **2.** Şagirdlərdə məntiqi təfəkkürü formalaşdırmaq üçün onlara məntiq xətalarını izah etmək lazımdır. | **4.** Şagirdin müşahidə yolu ilə əldə etdiyi informasiyanı necə emal etməsi onda emosional təfəkkürün nə dərəcədə inkişaf etdiyini müəyyənləşdirməyə imkan verir. |

A) 1, 2
B) 1, 4
C) 1, 3
D) 2, 3
E) 3, 4

# Doğru cavablar

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | B | 16 | D | 31 | A | 46 | E |
| 2 | C | 17 | C | 32 | C | 47 | B |
| 3 | E | 18 | B | 33 | B | 48 | B |
| 4 | C | 19 | A | 34 | C | 49 | A |
| 5 | C | 20 | C | 35 | B | 50 | B |
| 6 | C | 21 | B | 36 | B | 51 | D |
| 7 | B | 22 | B | 37 | C | 52 | C |
| 8 | B | 23 | A | 38 | D | 53 | C |
| 9 | C | 24 | B | 39 | B | 54 | D |
| 10 | A | 25 | A | 40 | B | 55 | A |
| 11 | A | 26 | A | 41 | D | 56 | D |
| 12 | C | 27 | C | 42 | A | 57 | B |
| 13 | C | 28 | D | 43 | C | 58 | C |
| 14 | D | 29 | B | 44 | D | 59 | B |
| 15 | A | 30 | C | 45 | A | 60 | E |